# «Azərbaycan Udi Ocağı»nın açılış mərasimi oldu





Rayonun Nic qəsəbəsi dünyada udilərin kompakt şəkildə yaşadığı yeganə yaşayış məskənidir. Hazırda burada udilərlə bərabər azərbaycanlılar, ləzgilər və digər xalqların nümayəndələri mehriban qonşuluq, bir-birlərinin adət-ənənələrinə, mədəniyyətinə qarşılıqlı hörmət şəraitində yaşayırlar. Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi yola, ölkə Prezidenti İlham Əliyevin göstərişlərinə uyğun olaraq Azərbaycanda yaşayan bütün azsaylı xalqlar kimi udilərin də mədəniyyətinin adət və ənənələrinin qorunub saxlanılması, inkişaf etdirilməsi üçün böyük tədbirlər həyata keçirilir. Milli azlıqlara dövlət qayğısının nəticəsidir ki, Nic qəsəbəsindəki XVIII əsrə aid “Çotari” Alban-udi xristian kilsəsi bərpa edilərək udilərin istifadəsinə verilmişdir. Avqustun 7-də Nicdə daha mühüm bir tədbir baş tutmuşdur. Həmin gün qəsəbədə «Azərbaycan-Udi Ocağı»nın açılış mərasimi olmuşdur. Mərasimi giriş sözü ilə Azərbaycan yazıçılar Birliyin üzvü, BDU-nun dosenti Elza Mollayeva açmışdır. Söz Qəbələ Rayon İcra Hakimiyyəti başçısı Səbuhi Abdullayevə verilmişdir. Cənab Səbuhi Abdullayev ölkəmizdə azsaylı xalqlara göstərilən dövlət qayğısından, multkulturalizm dəyərlərinin qorunub saxlanılmasından, udilərin kompakt şəkildə yaşadığı Nic qəsəbəsinin sosial iqtisadi problemlərinin həlli üçün görülən tədbirlərdən söz açmış, «Azərbaycan Udi Ocağı»nın gənc nəslin tariximizi öyrənməsi və hörmət etməsi yönündə oynayacağı roldan danışmışdır. Respublika Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov, BDU-nun tarix fakültəsinin dekanı Azad Rzayev, “Azərbaycan Dünyası” jurnalının baş redaktoru Eldar İsmayılov, Nic Udi-xristian dini icmasının rəhbəri Robert Mobili, Azərbaycandakı dağ yahudiləri, dini icmasının, roma katolik kilsəsi Azərbaycan nümayəndəliyinin, pravoslav kilsəsinin təmsilçiləri, iş adamı Şahvələd Məmmədov və Respublika Ağsaqqallar Şurasının sədri, millət vəkili Fəttah Heydərov çıxış edərək «Azərbaycan Udi Ocağı»nın açılışını multkulturalizmin daha da inkişafı yolunda mühüm addım kimi qiymətləndirmişlər. Sonra tədbir iştirakçıları «Azərbaycan-Udi Ocağı»nda yaradılmış şəraitlə yaxından tanış olmuşlar.



**Qüdrət SƏMƏDOV,**
**İlkin Vəlizadə (foto),**
***«Qəbələ»***

# İsrail dövlətinin Azərbaycandakı səfiri Dan Stav Qəbələ rayonuna səfər etmişdir



İsrailin ölkəmizdəki səfiri Dan Stav respublikanın şimal-qərb bölgəsinə səfəri çərçivəsində avqustun 7-də Qəbələ rayonuna gəlmişdir. Qəbələ Rayon İcra Hakimiyyətinin inzibati binasında RİH başçısı ilə səlahiyyətli səfirin görüşü keçirilmişdir.

Görüş zamanı Dan Stava rayonun tarixi, sosial-iqtisadi inkişaf proqramı çərçivəsində həyata keçirilən müxtəlif layihələr və rayonda yaradılan müasir turizm infrastrukturu haqqında ətraflı məlumat verilmişdir.

Ölkələr arasında mədəniyyət və turizm sahəsində qarşılıqlı əməkdaşlıq əlaqələrinin yüksək səviyyədə inkişaf etdirilməsindən söz açan Qəbələ rayon icra hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayev Qəbələ şəhərində keçirilən X Qəbələ Beynəlxalq Musiqi Festivalında İsrailin Yerusəlim simfonik orkestrinin nümunəvi çıxışının musiqisevərlər tərəfindən yüksək əhval-ruhiyyədə qarşılandığını diqqətə çatdırmışdır.

Səfir Dan Stav öz növbəsində ona göstərilən diqqət və qonaqpərvərliyə görə minnətdarlığını ifadə edərək Qəbələ rayonunun onlar üçün əziz bir məkan olduğunu vurğulamışdır.

Daha sonra Azərbaycan Respublikasının Qəbələ rayonu ilə İsrail dövlətinin Yokneam şəhərləri arasında əməkdaşlığın daha da genişləndirilməsi istiqamətində ətraflı fikir mübadiləsi aparılmışdır.

Axşam saatlarında Dan Stav X Qəbələ Beynəlxalq Musiqi Festivalının bağlanış mərasimində iştirak etmişdir.

# Vətəndaşları qəbul edib



Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, ölkəmizin bölgələrində nazirlər və komitə sədrləri tərəfindən vətəndaşların qəbulu davam edir.

Avqustun 1-də Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova Qəbələdə vətəndaşları qəbul edib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova və Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gələrək ulu öndərin əziz xatirəsinə ehtiramlarını bildirib, önünə gül dəstələri qoyublar.

Qəbələ Mədəniyyət Mərkəzində keçirilən qəbulda komitə sədri Qəbələ, Qobustan, Ağsu, Şamaxı, İsmayıllı rayonlarından olan sakinlərin müraciətlərini dinləyib, onların ərizə, təklif və tövsiyələrinə baxıb.

Qəbuldan sonra rayonun fəal qadınları ilə görüş keçirilib. Görüşdə Qəbələ rayonunda qadın və uşaq hüquqlarının müdafiəsi, qadın sahibkarlığının inkişafı və digər mövzular müzakirə olunub. Tədbirdə rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova iştirak edib.

**“Qəbələ”**